## 203 Avropa Şurasının fəaliyyətinə və Azərbaycan Respublikası ilə Avropa Şurası arasındakı əməkdaşlığa dair məlumatların yayılması barədə

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Avropa Şurasının fəaliyyətinə və Azərbaycan Respublikası ilə Avropa Şurası arasındakı əməkdaşlığa dair məlumatların geniş yayılması məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırılsın ki, müvafiq mərkəzi icra hakimiyyəti orqanları ilə birlikdə Avropa Şurasının fəaliyyətini əks etdirən kitabça və plakatların, Avropa konvensiyalarının, sazişlərinin, insan hüquqlarına dair qəbul edilən sənədlərin nəşrini, onların yayılmasını təmin etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə və Azərbaycan Dövlət Teleqraf Agentliyinə (AzərTAc) tapşırılsın ki, Avropa Şurasının fəaliyyətinə dair məlumatların və Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlıq sahəsində həyata keçirilən tədbirlərin kütləvi informasiya vasitələri və agentliklər vasitəsi ilə təbliğini və yayılmasını təmin etsin.

3. Dövlət Televiziya və Radio Verilişləri Şirkətinə tapşırılsın ki, Avropa Şurasının fəaliyyətinə və Azərbaycan Respublikası ilə Avropa Şurası arasındakı əməkdaşlığa həsr olunmuş verilişlərin təşkilini təmin etsin.

4. Azərbaycan Respublikasının Təhsil Nazirliyinə tapşırılsın ki, Bakı Dövlət Universitetində Avropa konvensiyaları, sazişləri, Avropa Şurası Parlament Assambleyasının, Avropa Şurası Nazirlər Kabinetinin, Avropa İnsan Hüquqları Məhkəməsinin sənədləri ilə təchiz olunan "İnformasiya mərkəzi"nin yaradılmasını təmin etsin.

5. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə tapşırılsın ki, respublikanın mərkəzi kitabxanalarını, Azərbaycan Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutunun və



təhsil müəssisələrinin kitabxanalarını insan hüquqlarına dair ixtisaslaşmış ədəbiyyatla təmin olunmasını həyata keçirsin.

6. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 18 mart 2000-ci il
№ 364

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.-2000.- 31 mart, № 3.- S.1140-1141.